*Layihə*

**«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklər və əlavə edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**I.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə aşağıdakı dəyişikliklər və əlavə edilsin:

1. **50-ci maddə** aşağıdakı yeni redaksiyada verilsin:

**«Maddə 50. Müəlliflik hüququnu və əlaqəli hüquqları pozma**

*1.Müəllifliyin mənimsənilməsi (plagiatçılıq), müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərinin texniki müdafiə vasitələrinin birbaşa və ya dolayısı yolla pozulması, dəyişdirilməsi və ya sıradan çıxarılması, yaxud əsərin və ya fonoqramın nüsxələrinin qeyri-qanuni hazırlanması (çoxaldılması) nəticəsində müəlliflik hüququ və əlaqəli hüquqların pozulması müəllifə və ya hüquq sahibinə az miqdarda ziyan vurduqda-*

*müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərinin, eləcə də müəlliflik hüququ ilə qorunan kompyuter proqramlarının pirat (kontrafakt) nüsxələri və belə nüsxələrin hazırlanması və surətçıxarılması üçün istifadə edilmiş material və avadanlıqlar, hüquq pozuntusunun törədilməsində istifadə edilən digər alətlər və vasitələr müsadirə edilməklə fiziki şəxslər 500 manatdan 1000 manatadək miqdarda, vəzifəli şəxslər 1000 manatdan 4500 manatadək miqdarda, hüquqi şəxslər 4500 manatdan 10000 manatadək miqdarda cərimə edilir».*

2. Bu Məcəllənin 50-ci maddəsindən sonra verilmiş **«Qeyd»** hissəsində **"min manatadək"** sözləri *"yüz manatadək"* sözləri ilə əvəz edilsin.

3. **50-1-ci maddənin** 2-ci abzası aşağıdakı redaksiyada verilsin:

*«qeyri-qanuni hazırlanmış (istehsal edilmiş) inteqral sxem topologiyasının nüsxələri, yaxud bu cür inteqral sxem topologiyasından ibarət olan məmulatlar, inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququn pozuntusunun törədilməsində istifadə edilən materiallar, avadanlıqlar, digər alətlər və vasitələr müsadirə edilməklə fiziki şəxslər 500 manatdan 1000 manatadək miqdarda, vəzifəli şəxslər 1000 manatdan 4500 manatadək miqdarda, hüquqi şəxslər 4500 manatdan 10000 manatadək miqdarda cərimə edilir».*

4. **50-2-ci maddənin** 2-ci abzası aşağıdakı redaksiyada verilsin:

*«folklor nümunələrindən istifadəyə dair tələblərin pozulması ilə istehsal edilmiş folklor nümunələrinin yazıldığı maddi daşıyıcı və ya onun nüsxələri, yaxud bu cür nüsxələrin hazırlanmasında istifadə edilən materiallar, avadanlıqlar, digər alətlər və vasitələr müsadirə edilməklə fiziki şəxslər 500 manatdan 1000 manatadək miqdarda, vəzifəli şəxslər 1000 manatdan 4500 manatadək miqdarda, hüquqi şəxslər 4500 manatdan 10000 manatadək miqdarda cərimə edilir».*

5. **413.1-ci maddədə** ***«ətraf mühitin mühafizəsi,»*** sözlərindən sonra *«əqli mülkiyyət hüquqlarının təminatı»* sözləri əlavə edilsin.

**II.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə aşağıdakı dəyişikliklər edilsin:

1. 165-ci maddə aşağıdakı yeni redaksiyada verilsin:

*«Maddə 165. Müəlliflik hüququ və əlaqəli hüquqları pozma*

*165.1. Müəllifliyin mənimsənilməsi (plagiatçılıq), yəni özgənin elmi, ədəbi, bədii və ya digər əsərinin başqa ad altında tam və ya qismən açıqlanması, nəşr etdirilməsi və ya özgənin müəllifliyinin başqa cür mənimsənilməsi, yaxud qanunsuz olaraq özünü başqasına məxsus olan əsərə və ya əlaqəli hüquqların obyektlərinə hüquq sahibi kimi təqdim etmə, özgənin əsərini qanunsuz olaraq yenidən dərc etmə və ya yayma, müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərindən qeyri-qanuni şəkildə istifadə etməklə əsərlərin və ya fonoqramların (hazırlanması) istehsal edilməsi, əsərlərin və fonoqramların pirat (kontrafakt) nüsxələrini kommersiya məqsədilə çoxaltma və onların daşınmasını həyata keçirmə, əgər bu hərəkət müəllifə və ya digər hüquq sahibinə xeyli miqdarda zərər vurmuşdursa -*

*əsərin və ya əlaqəli hüquqların obyektlərinin pirat (kontrafakt) nüsxələri müsadirə edilməklə, beş min manat məbləğində cərimə ilə, yaxud üç ildən beş islədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.*

*165.2. Eyni əməllər:*

*165.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə-*

*əmlakı müsadirə edilməklə yeddi min manat məbləğində cərimə ilə və ya yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.*

*165.3. 165.1-ci maddədə nəzərdə tutulan hərəkətlər-*

*a) müəllifə, yaxud hüquq sahibinə külli miqdarda ziyan vurduqda və ölkənin iqtisadi maraqlarına toxunduqda;*

*b) şəxsin öz xidməti vəzifəsindən istifadə etməklə törədildikdə-*

*əmlakı müsadirə edilməklə on min manat məbləğində cərimə ilə və ya on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır».*

***«Qeyd:*** *Bu Məcəllənin 165.1-ci, 165-1.1-ci, 165-2.1-ci və 165-3-cü maddələrində* ***«xeyli miqdarda ziyan»*** *dedikdə* ***100*** *manatdan* ***2500*** *manatadək olan məbləğ başa düşülür.*

*Bu Məcəllənin 165.3-cü maddəsində* ***«külli miqdarda ziyan»*** *dedikdə* ***2500*** *manatdan artıq olan məbləğ başa düşülür.*

*Bu Məcəllənin 165-ci, 165-1-ci, 165-2-ci və 165-3-cü maddələrində göstərilən qeyri-qanuni hərəkətlərə görə cəza tətbiq edilərkən cinayət qanunvericiliyinə uyğun olaraq vurulan zərərin miqdarı ilə yanaşı törədilən əməlin miqyası da nəzərə alınmalıdır ».*

2. 165-1-ci, 165-2-ci və 165-3-cü maddələrindən sonra verilmiş **«Qeyd»** hissələri çıxarılsın.

**III.** Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

---